**GÜLƏŞ**



Azərbaycan güləşi qədim tarixə malik olan və geniş yayılmış idman növüdür. Yunan-Roma güləşi Yunanıstanda, sərbəst güləş isə İngiltərədə yaranıb. yunan-Roma güləşi üzrə ilk rəsmi yarış 1896-ci ildə Yunanıstanda keçirilən I Olimpiya Oyunları zamanı, sərbəst güləş üzrə isə ilk rəsmi yarış 1904-ci ildə ABŞ-ın Sent-Lyuis şəhərində keçirilən III Olimpiya oyunları zamanı baş tutub.

Azərbaycan güləşçiləri bu günə kimi Avropa, dünya, Olimpiya oyunlarının və beynəlxalq yarışların qalibi və mükafatçısı olublar.

Azərbaycan gəncləri böyük həvəslə güləş idman növü ilə məşğul olurlar. Tələbələr güləş idman növü ilə məşğul olduğu zaman onlarda mərdlik, intizamlıq, yoldaşlıq və Vətənə məhəbbət hissləri daha da artır, sağlamlıqlarını möhkəmləndirir, xəstəliklərə qarşı immunitetini yüksəldir, təhsildə və işlədikləri yerlərdə onların dözümlüyünün, gücünün və çevikliyinin artmasına kömək edir. Güləş idman növünün faydaları aşağıdakılardır:

- Güləşin digər idman növlərindən gənclərin hərəkətliyinin inkişaf etdirməsində çox təsirli olduğu isbat edilmişdir.
- Güləş sürət, qüvvə, elastiklik, dayanıqlıq kimi fiziki xüsusiyyətləri inkişaf etdirir.
- Güləş eyni zamanda cəsarət, təvazökarlıq, özünəgüvən kimi insani xüsusiyyətləri inkişaf etdirir.
- Güləş bir mübarizə idman növü olmaqla yanaşı insana aclığa, susuzluğa, yoxluğa dözmə əzmi qazandıran müdhiş bir idmandır.

## BÖLMƏNİN FƏALİYYƏTİ



Ölkənin ali məktəb tələbələri arasında keçirilən güləş yarışlarında Tibb Universitetinin tələbələri 200-dən çox medallar qazanıblar.

Güləş bölməsində məşğul olan tələbələr arasında "idman ustası", "idman ustalığına namizəd" və müxtəlif kateqoriyalı tələbə idmançılar yetişib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş ali təhsil müəssisələrinin tələbələri arasında XV Respublika Universiadası keçirilib. Yunan-Roma güləşi üzrə yarışlarda universitetimizi 5 tələbə güləşçi təmsil edib. Onlardan Murad Həsənli və Murad Şıxıyev I yeri tutaraq qızıl medal, İbrahim İbrahimli və Kamal İsmayılov isə III yerə sahiblənərək bürünc medal qazanıblar.



## MƏŞQÇİ-MÜƏLLİM



**Məmmədov Zakir Ələkbər oğlu** 25.12.1953-cü ildə Bakı şəhərində anadan olub. 1975-ci ildə Bədən tərbiyəsi və idman institutunu bitirib. Krasnodar Dövlət Bədən tərbiyəsi institutunun Fiziki tərbiyə ixtisasının təkmilləşdirilməsi kursunu bitirib. O, proffessor, pedaqoqika üzrə fəlsəfə doktoru, idmana aid 45-dən çox elmi- pedaqöji məqalənin, tədris, dərs vəsaitlərinin müəllifi və eyni zamanda Azərbaycan Respublikasının "Fəxri Bədən Tərbiyəsi və İdman işçisi" və Azərbaycan Respublikasının "Ali kateqoriyali" müəllim-məşqçi ixtisaslı mütəxəssisi adına layıq görülüb. 1982-ci ildən Tibb İnstitutunun Bədən tərbiyəsi və idman kafedrasında müəllim-məşqçi vəzifəsində işə başlayıb.

2006-cı il Bakıda keçirilən hərbçilər arasında güləş üzrə dünya çempionatında Zakir Məmmədov hakimlik edib və iki tələbəsi dünya çempionu olub. İşlədiyi müddətdə 14-dən çox "SSRİ İdman Ustası" və 300-dən çox müxtəlif dərəcəli güləşçi yetişdirib.




FİLA-nın diplom və fərdi mükafatları ilə təltif olunub. FİLA-nın Avropa, Dünya Güləş Birliyi ilə bərabər Azərbaycan Güləş Federasiyasının hakimlər kollegiyasının üzvü olub.

Ölkə prezidenti Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun (hazırda adı "Təbib" Tədris İdman Mərkəzi) əməkdaşı Məmmədov Zakir Ələkbər oğlunun idman sahəsində göstərdiyi xidmətlərini yüksək qiymətləndirərək Azərbaycan Respublikasının "Əməkdar Bədən tərbiyəsi və idman xadimi" fəxri adı, eyni zamanda Prezidentin fərdi mükafatı ilə bərabər mənzil ilə də mükafatlandırıb**.** Həmçinin professor Zakir Ələkbər oğlu Məmmədov Azərbaycan Olimpiya komitəsinin 30 illik yubleyinə həsr olunmuş medal ilə təltif olunub. Zakir Məmmədov ömrümü idmana, gənclərimizin təlim-tərbiyəsinə, onların passionar (milli təəssüb hissi olan) vətəndaş kimi yetişməsinə, vətənpərvərlik hissi ilə böyüməsinə, cəsur və mərd olmasına həsr edib.